**“Baytarlıq haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə ? Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli 1031-IVQD nömrəli Qanununun tətbiqi haqqında**

AZ ?RBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S ?R ?NCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Baytarlıq haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə ? Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli 1031-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Baytarlıq haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə ? Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının ?dliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Baytarlıq haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə ? Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 oktyabr 2014-cü il
807